Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

15 yanvar 2016-cı il
№ 1-2 (9005)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti



2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Bu da çox müsbət haldır. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Bu da mümkün deyildi. Çünki qeyd etdiyim kimi, neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür. Manatın məzənnəsi devalvasiyaya uğramışdır. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğramışdır. Belə olan halda Azərbaycanda istehsal olunan məhsullar öz rəqabət qabiliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Yəni, bu, qaçılmaz bir addım idi. Bunun səbəbi Azərbaycandan kənarda yaranmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini mən şəxsən iqtisadi amillərlə, sırf iqtisadi amillərlə bağlaya bilmərəm. Çünki dünya iqtisadiyyatı o qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 3-4 dəfə aşağı düşsün. Mənim fikrimcə, burada ilk növbədə siyasi amillər öz rolunu oynayıbdır. Kimsə kiminləsə mübarizə aparır, biz isə bundan əziyyət çəkirik. Ona görə bu da əlbəttə ki, bizim iqtisadi vəziyyətimizə mənfi təsir göstərmişdir. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların aşağı salınması üçün daha da fəal iş görək.

Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu, məni çox sevindirir. Çünki bu, son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir. Hesab edirəm ki, qeyri-ineft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi öz potensialını təqdim edir. Başqa iqtisadi göstəricilər də müsbət dinamikanı göstərir. Yəni, 2015-ci ildə bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir.

Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamışdır. İnsanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilmişdir. Bu sahədə də islahatlar aparılıb və bu yardımı alan insanların sayı azalıb. Bunun hesabına həqiqətən bu yardıma möhtac olan ailələrə daha da böyük məbləğdə yardım verilir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artmışdır. Sosial infrastruktur layihələri icra edilmişdir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. Altmışa yaxın tibb müəssisəsi tikilib- təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir. Yəni, sosial infrastruktur layihələri Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuşdur və onlar icra edildi, bu il də icra edilməlidir.

Regionların inkişafı 2015-ci ildə sürətlə getmişdir. Mən dəfələrlə bölgələrdə olmuşam. Vəziyyətlə tanış olurdum, görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir. Bununla bərabər, onu da deməliyəm ki, 40 min iş yeri bağlanmışdır. Ancaq buna baxmayaraq, 84 min daimi iş yeri açılmışdır, 40 min iş yeri bağlanmışdır. Yenə də burada biz müsbət dinamikanı görürük. Ancaq bununla bərabər, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək.

Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Ötən il əhalinin sayı 114 min nəfər artıb. Bu, çox müsbət haldır, ümumi iqtisadi inkişafın təzahürüdür. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki bir il ərzində əhalinin sayının 114 min nəfər artması gələcəkdə yeni iş yerləri, bir neçə ildən sonra yeni uşaq bağçaları, yeni məktəblər deməkdir. Biz bunları etməliyik. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, əhali artır. Eyni zamanda, bu, bizim iqtisadiyyatımıza əlavə yükdür. Biz elə işləməliyik ki, iqtisadi inkişaf, açılan iş yerləri, yaradılan sosial infrastruktur demoqrafik inkişafı üstələsin. Bax, hökumət qarşısında bu vəzifə qoyulur və biz bu vəzifəni icra etməliyik.

Keçən il TANAP layihəsinin inşası başlanmışdır. Bu, ölkəmiz, region və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli layihədir, strateji əhəmiyyət daşıyan bir layihədir. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Avropa isə alternativ qaz mənbəyi əldə edəcək. Tranzit ölkələr, – eyni zamanda, onlar istehlakçı ölkələrdir, – bundan böyük mənfəət götürəcəklər. Yəni, bu layihənin bütün iştirakçıları böyük siyasi və iqtisadi dividend əldə edəcəklər. Bu layihənin təşəbbüskarı Azərbaycandır. Əsas iqtisadi yük bizim üzərimizə düşür və biz bu layihəni icra etməyə tərəfdaş ölkələrlə başlamışıq. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulub və işlər uğurla davam etdirilir. Bu il artıq kəmərin inşası başlayır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Soydaşlarımıza maddi və mənəvi dəstək

**Hər bayramda məcburi köçkün soydaşlarımızı yada salmaq, onlara bayram sovqatı göndərmək illərdir ki, bir ənənəyə çevrilmişdir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kollektivi Qarabağın müxtəlif rayonlarından olan, hazırda Goranboyda məskunlaşmış həmvətənlərimizə maddi və mənəvi dəstəyini özünün vətəndaşlıq borcu sayır.**

31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində də Goranboya, Gəmiçiliyin himayəsində olan 3350 soydaşımıza ərzaq yardımı aparılıb, onlara dənizçilərin təbrikləri və xoş arzuları çatdırılıb.

Bayram ərəfəsində keçirilən görüşdə doğma yurdlarını tərk etmiş həmvətənlərimizə dövlət qayğısına, daimi diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub, dənizçilərə aydın səma və əmin-amanlıq arzuları səslənib.

## İlin ilk həftəsində Bakı-Aktau istiqamətində 255 yük maşını daşınmışdır

**2015-ci ilin dekabr ayında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri ilə Bakı-Aktau istiqamətində 566, 2016-cı ilin ilk 7 günü ərzində isə 255 yük maşını daşınmışdır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin yanvar-noyabr aylarında Bakı-Aktau istiqamətində ayda orta hesabla 60 yük maşını daşınırdı. Bu da 10 dəfədən çox artım deməkdir.**

Ələt limanında yük avtomobillərinin sıxlığının tam aradan qaldırılması istiqamətində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi tərəfindən ardıcıl tədbirlər görülməkdədir. Qış aylarında hava şəraitinin çətinliyinə baxmayaraq, gəmilərin əlavə səfərləri təşkil edilir, ehtiyatda olan gəmilər istismara qaytarılır. Belə ki, dekabrın ortalarından keçən müddətdə əlavə 3 bərə – "Akademik Topçubaşov", "Qarabağ" və Professor Gül" gəmiləri istismar ehtiyatından çıxarılaraq yükdaşımalara cəlb edilmişdir. Yaxın günlərdə daha bir gəmi – "Merkuri-1" müvafiq texniki işlərdən sonra istismara buraxılacaqdır.

Hazırda Bakıdan Aktau və Türkmənbaşı istiqamətlərində 11 bərə və 2 Ro-Ro gəmisi işləyir. Görülmüş tədbirlər nəticəsində Aktau limanında yük maşınlarının sıxlığı tam aradan qaldırılmış, Ələt limanında isə avtomobillərin yükləməni gözləmə müddəti yarıbayarı azalmışdır.

Xatırladaq ki, bərə və Ro-Ro gəmilərinin səfərləri barədə məlumatlar onlayn rejimdə Gəmiçiliyin veb-saytında (www.acsc.az <http://www.acsc.az/>) mütəmadi olaraq yerləşdirilir.

## Ukrayna Transxəzər beynəlxalq nəqliyyat marşrutuna qoşulur

**Yanvarın 15-də Ukraynanın İliçevsk şəhərindən Xəzər və Qara dəniz vasitəsilə Ukrayna-Gürcüstan-Azərbaycan-Qazaxıstan-Çin marşrutu üzrə pilot reysi həyata keçirmək üçün konteyner qatarı yola düşəcək.**

AZƏRTAC Ukraynanın İnfrastruktur Nazirliyinə istinadla xəbər verir ki, bu marşrut "İpək Yolu"nun yeni istiqamətidir və marşrut xətti üzrə iki dəfə – İliçevsk-Batumi və Ələt-Aktau marşrut xəttində bərədən istifadə olunacaq. Transxəzər beynəlxalq nəqliyyat marşrutu layihəsinin imkanları potensial təchizatçılara 2015-ci il noyabrın 16-da Ukraynanın paytaxtı Kiyevdə keçirilən roud-şouda və dekabrın 3-də Odessada keçirilmiş "Avropa və Asiyanı birləşdirərkən: transkontinental marşrutlar sisteminin formalaşdırılmasına yeni baxış" beynəlxalq forumda təqdim edilib.

Bu yeni xətt Ukrayna mallarının Mərkəzi Asiya ölkələrinə çatdırılmasında alternativ yol olacaq. Pilot reysi həyata keçirəcək konteyner qatarı təxminən 20 vaqondan ibarət olacaq.

## "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.**




Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılacaq, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

# Atılan addımlar əməli nəticələrini verməkdədir

## *Gəmiçiliyə beynəlxalq sertifikat təqdim edildi*





**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində İSO beynəlxalq idarəetmə standartlarının tətbiqi və uyğunluq sertifikatlarının alınması istiqamətində atılan addımlar öz əməli nəticələrini verməkdədir.**

Belə ki, yanvarın 11-də "AXDG" QSC-yə Amerika Gəmiçilik Bürosunun (ABS) sertifikatının təqdim olunması mərasimi keçirilmişdir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev mərasimdə çıxış edərək, qarşıda duran vəzifələrin yerinə yetirilməsi, o cümlədən beynəlxalq standartlara cavab verən müasir, çevik bir şirkətin qurulması üçün görülən tədbirlərdən danışmış, alınan sertifikatın əhəmiyyətini yüksək dəyərləndirmişdir. R.Vəliyev eyni zamanda, bundan sonar daha məsuliyyətlə, beynəlxalq tələblərə uyğun işləməyin vacibliyini vurğulamışdır.

Amerika Gəmiçilik Bürosunun auditoru Angenilas Emanuil Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə gələcək fəaliyyətində uğurlar arzulamış, birgə işlərdə sıx əməkdaşlığın perspektivlərinə əmin olduğunu bildirmişdir. Qeyd edək ki, İSO 9001-2008 (Keyfiyyətin idarə edilməsi), İSO 14001-2004 (Ekoloji menecment), İSO 50001-2011 (Enerji səmərəliliyi menecmenti) və OHSAS 18001-2007 (Peşə təhlükəsizliyi və əməyin mühafizəsinin idarə edilməsi) beynəlxalq idarəetmə standartlarının tələblərinə uyğun olaraq, Gəmiçilik üçün keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və enerji səmərəliliyi sahələrinə dair İnteqrasiya olunmuş İdarəetmə Sistemi (İİS) işlənmiş və gəmilərdə tətbiq edilmişdir.

Amerika Gəmiçilik Bürosu Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İnteqrasiya olunmuş İdarəetmə Sisteminin beynəlxalq idarəetmə standartlarına uyğunluğunu təsdiqləmək üçün aidiyyəti departamentlərdə və müxtəlif gəmilərdə sertifikatlaşma üzrə xarici audit aparmış, nəticədə Gəmiçiliyə 5 illik müddəti olan sertifikat təqdim etmişdir.

# "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi: yeni istiqamətlər, inkişaf və perspektivlər"











**Yanvarın 12-də Bakıda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi: yeni istiqamətlər, inkişaf və perspektivlər" mövzusunda Beynəlxalq Forum-dialoq keçirilib.**

Forumda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "İran Dəmir Yolları" şirkətinin Direktorlar Şurasının sədri Mohsen Pur Seyid Ağayi, "Gürcüstan Dəmir Yolu" SC-nin rəisi Mamuka Baxtadze, Ukrayna İnfrastruktur nazirinin müavini Nikolay Snitko, İran Nəqliyyat və şəhərsalma nazirinin müavini Məhəmməd Seyidnejat, "Ukrayna Dəmir Yolu" SC İdarə heyətinin sədr əvəzi Aleksandr Zavqorodniy, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Azərbaycan üçün çox önəmli marşrut olaraq, respublikamızın tranzit potensialından yüksək səviyyədə bəhrələnməyə imkan verəcək. Bu layihənin gerçəkləşdirilməsi yüklərin ünvanına çatdırılma müddətlərini 2-3 dəfə azaldacaq.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev forum iştirakçılarına Gəmiçiliyin bərə donanmasının Xəzərdə rolu barədə ətraflı məlumat verərək, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsas strategiyasının və inkişaf prioritetinin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin, o cümlədən "Şimal-Cənub" dəhlizinin imkanlarından optimal istifadəyə yönəldiyini vurğulayıb. Bu gün Avropa-Qafqaz-Asiya, habelə Şimal-Cənub istiqamətlərində Xəzərdən keçməklə təhlükəsiz və effektiv yükdaşımaların təmin edilməsində AXDG-nin donanması əhəmiyyətli rol oynayır.

Rauf Vəliyev qeyd edib ki, nəqliyyat sahəsi Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına öz töhfələrini verir və daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Daxili və beynəlxalq yükdaşımaların artırılması, ölkənin tranzit potensialının gücləndirilməsi kimi məqsədlərə çatmaq üçün biz hər zaman dövlətimizin dəstəyinə, möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqətinə güvənirik. Bütün nəqliyyat işçiləri kimi, dənizçilər də verilən tapşırıqları əzmlə yerinə yetirməkdə və regional layihələrdə fəal iştirak etməkdə qətiyyətlidirlər.

Forumda müzakirə obyekti olan məsələlərdən biri "Şimal-Cənub" dəhlizinin Azərbaycan və İrandan keçən hissəsində yükdaşımaların təmin edilməsi idi. "İran Dəmir Yolları" şirkətinin Direktorlar Şurasının sədri Mohsen Pur Seyid Ağayi Qəzvin-Rəşt-Astara dəmir yolu inşa edilənə qədər yüklərin 2 variant üzrə daşınacağını bildirib. Birinci variant hər iki Astaranın dəmir yolu ilə birləşdirilməsini nəzərdə tutur. İkinci variantda isə yüklərin Əmirabad və Ələt limanları arasında bərələrlə daşınması gündəmdədir. İran nümayəndəsi yaxın 4 ayda Əmirabad limanında bərə körpüsünün istifadəyə veriləcəyini söyləyib.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev öz növbəsində AXDG-nin bərə gəmilərinin Əmirabad istiqamətində işləməyə tam hazır olduğunu və bu daşımalara Ro-Ro gəmilərinin də cəlb edilməsinin mümkünlüyünü bildirib.

## 2015-Cİ İLİN ƏN YAXŞILARI

# Müsabiqəyə yekun vurulmuşdur

**Keçən ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində istehsalat tapşırıqlarını layiqincə yerinə yetirən, təhlükəsizlik və keyfiyyətli xidmət göstəriciləri ilə fərqlənən gəmi heyətlərini müəyyən etmək, təcrübələrini donanmalarda geniş yaymaq, gəmilər arasında sağlam rəqabəti gücləndirmək, səriştəli heyət üzvlərini üzə çıxarmaq, onlara**







**ustalıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaratmaq, yaxşı işçilərin nüfuzunu və statusunu yüksəltmək, Gəmiçiliyin inkişafında onların rolunun artmasına nail olmaq, peşəkarlıq səviyyələrinin yüksəldilməsində stimullaşdırıcı tədbirlərdən geniş istifadə etmək məqsədilə ilin "Ən yaxşı gəmisi", "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik", "Ən yaxşı elektrik mexaniki", "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" müsabiqələri keçirilir.**

Yeni il ərəfəsində 2015-ci ilin "Ən yaxşı gəmisi", "Ən yaxşı kapitan", "Ən yaxşı mexanik", "Ən yaxşı elektrik mexaniki", "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" müsabiqələrinə yekun vurulmuşdur.

Bütövlükdə, müsabiqə üç mərhələdə keçirilmişdir. Oktyabr ayına təsadüf edən birinci mərhələdə donanmalarda Cəmiyyətin aidiyyəti departament nümayəndələrinin iştirakı ilə gəmiçilik sahəsində nüfuzlu mütəxəssislər, təcrübəli işçilər və müsabiqə materiallarının qiymətləndirilməsində səriştəsi olan şəxslərin daxil olduğu işçi qrupları iddiaçıların müsabiqələrin keçirilməsi qaydalarında nəzərdə tutulmuş meyarlar üzrə qiymətləndirməsini aparmışlar.

Hər donanmada müsabiqə iştirakçılarından ən yüksək bal toplamış 5 gəmi, 5 kapitan, 5 mexanik, 5 elektrik mexaniki, 5 matros, 5 motorçu, 5 bosman, 5 aşpaz seçilmiş və təsdiqləyici sənədlərlə birlikdə Təşkilat komitəsinə göndərilmişdir.

Noyabrda baş tutan ikinci mərhələdə Təşkilat komitəsi tərəfindən donanmalardan daxil olan məlumatlar əsasında əhəmiyyətli hesab oluna biləcək xüsusi hallar da nəzərə alınmaqla, gəmilərin və namizədlərin fəaliyyəti müsabiqələrin keçirilməsi qaydalarında nəzərdə tutulmuş meyarlar üzrə qiymətləndirilmişdir.

Hər donanma üzrə daha çox bal toplamış 2 gəmi, 2 kapitan, 2 mexanik, 2 elektrik mexaniki, 2 matros, 2 motorçu, 2 bosman və 2 aşpaz Təşkilat komitəsinin qərarı ilə üçüncü mərhələyə buraxılmışdır.

Sonuncu - üçüncü mərhələdə Təşkilat komitəsi tərəfindən iddiaçıların təqdimatları dinlənilmişdir.

"Ən yaxşı gəmi" adına namizəd gəmilərin kapitanları gəmilərinin fəaliyyəti barədə ətraflı məlumat vermiş və sualları cavablandırmışlar. Qiymətləndirilmə zamanı təqdimatın tamlığı və zəruri məsələləri əhatə etməsi, gəminin fəaliyyətinin,




Gəmiçiliyin hədəfləri uğrunda heyətin səylərinin real faktlarla diqqətə çatdırılması, cavabların əsaslandırılması və inandırıcı xarakter daşıması, gəmini təmsil edən nümayəndə heyətinin vahid məqsəd uğrunda birlik nümayiş etdirməsi, gəminin fəaliyyətinin perspektivləri və gözlənilən nəticələri haqqında aydın təsəvvürün yaradılmasına xüsusi diqqət yetirilmişdir.

"Ən yaxşı kapitan", "Ən yaxşı mexanik", "Ən yaxşı elektrik mexaniki", "Ən yaxşı matros", "Ən yaxşı motorçu", "Ən yaxşı bosman" və "Ən yaxşı aşpaz" adlarına iddialılar isə üçüncü mərhələdə özləri haqqında qısa məlumat verməklə yanaşı, Təşkilat komitəsinin təklif etdiyi mövzular ətrafında təqdimatla çıxış etmiş və sualları cavablandırmışlar.

Qiymətləndirilmə zamanı təqdimatın tamlığı və zəruri məsələləri əhatə etməsi, namizədin Gəmiçiliyin hədəfləri uğrunda səylərini real faktlarla diqqətə çatdırmaq, cavablarını əsaslandırmaq, yüksək nəzəri və praktiki bilik nümayiş etdirmək bacarığı və s. nəzərə alınmışdır.Yekun bal ümumi müzakirələrin nəticəsinə görə müəyyən edilmişdir.

Beləliklə, Xəzər Dəniz Neft Donanması üzrə "Şirvan", Dəniz Nəqliyyat Donanması üzrə "Qəhrəman Hacıyev" gəmiləri "İlin ən yaxşı gəmisi" müsabiqəsinin qalibi olmuşlar.

Bu nominasiya üzrə 2-ci yerə XDND-nin "Sabit Orucov" və DND-nin "Prezident Heydər Əliyev" gəmiləri layiq görülmüşlər.

XDND üzrə "V.Seyidov" gəmisinin kapitanı Zingirov İlqar Kamal oğlu və DND üzrə "Şirvan" gəmisinin kapitanı Quliyev Aydın Babaş oğlu "İlin ən yaxşı kapitanı" seçilmişlər.

Bu nominasiya üzrə 2-ci yeri XDND-nin "G.Ə.Şıxlinski" gəmisinin kapitanı İsmayılov Elvin Fərman oğlu və DND-nin "Merkuri-1" gəmisinin kapitanı Salmanov Kamal Bahadur oğlu tutmuşlar.

XDND üzrə "G.Ə.Şıxlinski" gəmisinin mexaniki Babayev Abdulla Balasaday oğlu və DND üzrə "Dədə Qorqud" gəmisinin mexaniki Babayev Vaqif Ağababa oğlu "İlin ən yaxşı mexaniki" müsabiqəsinin qalibi olmuşlar.

Bu nominasiya üzrə 2-ci yerə XDND-nin "Nefteqaz-58" gəmisinin mexaniki Atayev Sabir Məmmədzakir oğlu layiq görülmüşdür.

XDND üzrə "G.Ə.Şıxlinski" gəmisinin elektrik mexaniki Hüseynov Altay Əlfas oğlu və DND-nin "Balakən" gəmisinin elektrik mexaniki İsmayılov Elçin Abdulla oğlu "İlin ən yaxşı elektrik mexaniki" seçilmişlər.

Bu nominasiya üzrə 2-ci yeri XDND-nin "Şirvan-2" gəmisinin elektrik mexaniki Mehtiyev Teymur Cabbar oğlu və DND-nin "Üzeyir Hacıbəyli" gəmisinin elektrik mexaniki Tahirov İman Elbrus oğlu tutmuşlar.

XDND üzrə "SLV-363" gəmisinin matrosu Bakıxanov Arif Heybət oğlu və DND üzrə "Üzeyir Hacıbəyli" gəmisinin matrosu Maqsudov Vahid Ramazan oğlu "İlin ən yaxşı matrosu" müsabiqəsinin qalibi olmuşlar.

Bu nominasiya üzrə 2-ci yerə XDND-nin "Vaqif Cəfərov " gəmisinin matrosu Eminov Vüqar Əvəz oğlu və DND-nin "Cəfər Cabbarlı" gəmisinin matrosu Dadaşov Rasim Hacıağa oğlu layiq görülmüşlər.

XDND-nin "Kopyor-315" gəmisinin motorçusu Xancanov Balağa Atakişi oğlu və DND-nin "Naxçıvan" gəmisinin motorçusu Əliyev Səməd Zöhrab oğlu "İlin ən yaxşı motorçusu " seçilmişlər.

Bu nominasiya üzrə 2-ci yeri XDND-nin "Bulaq-2" gəmisinin motorçusu Şükürov Rafiq Bayram oğlu və DND-nin "G.Abbasov" gəmisinin motorçusu Cəfərov Yaşar Nəbi oğlu tutmuşlar.

XDND üzrə "Lyutoqa" gəmisinin bosmanı Hüseynov Ağalar Ağacan oğlu, DND üzrə "Koroğlu" gəmisinin bosmanı Məmmədov Əli Məmməd oğlu "İlin ən yaxşı bosmanı" müsabiqəsinin qalibi olmuşlar.

Bu nominasiya üzrə 2-ci yer XDND-nin "Atlet-8" gəmisinin bosmanı Bədirxanov Elman Teyfur oğlu və DND üzrə "Natəvan" gəmisinin bosmanı Babalıyev Rövşən Babalı oğluna verilmişdir.

XDND üzrə "Geofizik-1" gəmisinin aşpazı Dadaşova Gülnarə Sultan qızı və DND üzrə "Koroğlu" gəmisinin aşpazı Qəhrəmanlı Zümrüd Arif qızı "İlin ən yaxşı aşpazı" seçilmişlər.

XDND-nin "Lyutoqa" gəmisinin aşpazı Ağayev Xəyal Həsənağa oğlu və DND-nin "Bəstəkar Fikrət Əmirov" gəmisinin aşpazı Paşayev Mehman Xanoğlan oğlu bu nominasiya üzrə 2-ci yeri tutmuşlar.

**"DƏNİZ"**

## Sevər cəsurları, qoçağı dəniz

Bir üzü mülayim, bir üzü sərtdi,
Açmaz hər yetənə qucağın dəniz.
Sədaqət - həmişə birinci şərti,
Sevər cəsurları, qoçağı dəniz.

Çəkir dənizçini qəfil sınağa,
Dənizçi dənizə imtahan verir.
Sınaqdan uğurla keçənlərinsə,
Dənizin gözləri üstədir yeri.

Dənizdə dalğalar "dağ"a dönəndə
Sahildə dağlar da ehtiyat edər.
Çəkilməz gəmilər zərrəcə geri,
Gəmilər "dağlar"ın üstünə gedər.

Heç nə əsirgəməz, verər nəyi var,
Həmişə açıqdı əli dənizin.
Sevgidən savayı kimdən nə istər?
Onunçün uzundu dili dənizin.

Dənizçi səfərə çıxanda baxın,
Sevinci köksünə sığmır dənizin.
Gəmisiz, səfərsiz elə darıxır,
Bəzən, səsi belə çıxmır dənizin.

**Rasif İMANOĞLU**

# 2015-ci ilin "Ən yaxşı kapitan"ları

## Xəzərə sədaqət andı içən üç dənizçi qardaşdan biri



**İlqar Zingirov uşaqlıqdan dənizçi olmağı arzulayıb. Bu arzunun qanadlarında da doğulduğu Ermənistanda orta məktəbi bitirdikdən sonra 1982-ci ildə Bakıya üz tutub. Bakı Dəniz Yolları Məktəbində gəmi sürücülüyü ixtisasına yiyələnib. Otuz il əvvəl Xəzər Dəniz Neft Donanmasının "Aura" yedək gəmisində kapitanın üçüncü köməkçisi kimi ilk səfərini bu gün də yaxşı xatırlayır.**

Elə ilk səfərdə də Xəzərin sehrli cazibə qüvvəsinin təsiri altına düşüb. Dənizçi peşəsinə məhəbbət səfərdən-səfərə qanına-iliyinə işləyib. Şıltaq Xəzərin hər çək-çevirindən, hər imtahanından uğurla çıxdıqca peşəsinə daha qırılmaz tellərlə bağlanıb. Anlayıb ki, dəniz cəsurları, anadan dənizçi doğulanları sevir. Bələlərinin gözünün odunu ala bilməyəcəklərini ən qorxulu dənizlər də yaxşı bilir və qucağını həmişəlik onlara açırlar. XDND üzrə 2015-ci ilin ən yaxşı kapitanı İlqar Zingirova Xəzər qucaq açdığı kimi.

Müxtəlif təyinatlı gəmilərdə işləyib, bilmədiklərini həvəslə, səbrlə öyrənib. "Nefteqaz-26" yedək gəmisində kapitanın ikinci, "Ramiz Hacıyev" kran gəmisində kapitanın baş köməkçisi kimi çiyninə düşən vəzifələri layiqincə yerinə yetirib. 1990-cı ildə ona "Nəbi Rüstəmov" yedək gəmisinin sükanı etibar edilir. Sonralar müxtəlif vaxtlarda kapitan kimi "Utyos", "Lütoqa", "Andoqa", "General Ə. Şıxlinski", "Gültəkin Əsgərova", "Ehram Xalıqov" gəmilərinin heyətlərinə başçılıq edib. İnişildən "Vadim Seyidov" yedək gəmisinin kapitanıdır.

Atası Kamal, anası Səkinə xanım 4 oğul, 2 qız övladlarını əməyə məhəbbət ruhunda böyüdüblər. Namərd qonşularımız Ermənistandakı bütün soydaşlarımızı dədə-baba yurdlarında qovanda bu ailənin də taleyinə ağır qaçqınlıq həyatı yaşamaq düşdü. Ailənin ikinci övladı olan İlqarın açdığı cığırla sonralar böyük qardaşı Mustafa və sonbeşik İlham da Xəzərə üz tutdular. Mustafa hazırda Xəzər Dəniz Neft Donanmasının "İsrafil Hüseynov" borudüzən gəmisində motorçu işləyir. İlham isə "Nefteqaz-10" yedək gəmisində kapitanın baş köməkçisidir.

İlqar həm də qayğıkeş atadır. Ömürgün yoldaşı Mehriban xanımla bir oğul, iki qız böyüdür. Oğlu Rəşad tələbədir, Odlar Yurdu Universitetində ingilis dili ixtisasına yiyələnir.

– Xəzərin üzü döndəndə ən çox nə barədə düşünürsünüz? - deyə soruşdum. İlqar Zingirov dedi:

– Digər dənizlərlə müqayisədə küləkli, qasırğalı günləri daha çox olan, üzü adətən qəfildən dönən Xəzərin şıltaqlığına çoxdan alışmışıq. Ümumiyyətlə isə, kapitan təkcə küləkli günlərdə deyil, yaxşı havada da heyət, gəmi və yük üçün cavabdeh olduğunu bir an belə unutmamalıdır. Çünki dənizdə ən xırda səhvin, ən kiçik diqqətsizliyin də nəticəsi çox ağır ola bilər.

İlqar Zingirovu "Dəniz" qəzetinin çoxsaylı oxucuları adından XDND üzrə 2015-ci ilin ən yaxşı kapitanı seçilməsi münasibəti ilə təbrik etdik. Minnətdarlıq edərkən dedi:

– Müsabiqənin qalibi olmağım, dənizçilərə göstərilən diqqət, qayğı təbii ki, məni çox sevindirir. Amma bu adın məsuliyyəti də böyükdür. Elə çalışdığım Xəzər Dəniz Neft Donanmasında kifayət qədər mahir gəmi sürücüləri var. Sözümün canı budur ki, layiq görüldüyüm adı cari ildə qorumaq üçün daha böyük əzmlə çalışmalıyam.

**Rasif TAHİROV**

## Sahildə də xəyalı dənizdə olan kapitan

**Onu çoxdan – Gəmiçiliyin nəqliyyat gəmilərində matros işlədiyi vaxtlardan tanıyıram. Kapitanın üçüncü, ikinci, baş köməkçisi üzdüyü vaxtlarda da vicdanla çalışdığından işi həmişə başqalarına nümunə göstərilib. Elə buna görə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində keçirilən müsabiqədə Dəniz Nəqliyyatı Donanması üzrə 2015-ci ilin "Ən yaxşı kapitan"ı seçilməsi şəxsən mənim üçün gözlənilməz deyildi...**

Aydın Babaş oğlu Quliyev taleyini Gəmiçiliklə təsadüfən bağlamayıb. 59 il əvvəl Xəzərin sahilində dünyaya göz açıb. Kür gəmiçiliyinin gəmilərində matros işləyən babası Eynulla Əliyev keçən əsrin otuzuncu illərində Salyan rayonunda mahir dənizçi kimi tanınıb. Bu peşəyə qəlbində ilk sevgini də əslində babasının dənizçilərin həyatı haqqında maraqlı söhbətləri oyadıb. Tale elə gətirib ki, ordu sıralarına çağırılarkən də qismətinə dəniz düşüb. Keçmiş SSRİ-nin Şimal Hərbi Dəniz Qüvvələrinin gəmilərində üçillik xidməti başa vurduqdan sonra tərəddüd etmədən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə üz tutub. Gəmiçilikdə əmək fəaliyyətinə 1977-ci ildə "Sergey Tülenin" tankerində matros kimi başlayıb. Təhsilini unutmayan Aydın Quliyev Bakı Dəniz Yolları Məktəbində gəmi sürücülüyü ixtisasına dərindən yiyələndikdən sonra müxtəlif təyinatlı gəmilərdə işləyib. "Liza Çaykina" tankerində kapitanın üçüncü, "Nizami" teploxodunda kapitanın ikinci, baş köməkçisi kimi çiyninə düşən vəzifənin öhdəsindən layiqincə gəlib. Səfər xəritəsinə dünyanın neçə dənizinin adı düşüb. Yan aldığı xarici limanların hər biri ilə bağlı xoş təəssüratları az deyil. Kapitan kimi isə ilk dəfə "Səməd Vurğun" tankerinin göyərtəsinə qalxıb. 2007-ci ildən "Şirvan" teploxodunun sükanı ona etibar olunub. Hansı gəmidə üzməsindən asılı olmayaraq kollektivdə sağlam mühit yaratmağı, şəxsi nümunəsi ilə heyəti qarşıda duran vəzifələrin icrasına səfərbər etməyi bacarıb. Tələbkar olduğu qədər də qayğıkeş kapitan kimi tanınır.



Özü təbiətən cəsur, mərd olduğu üçün belə adamlara rəğbətini hiss etmək çətin deyil.

– Kapitan açıq dənizə çıxanda kimə bel bağlayacağını bilməlidir,- deyir. Güvəndiyi heyətlə ən qorxulu dənizləri fəth etməyə, ən çətin səfərlərə çıxmağa hazırdır. Peşəsindən asılı olmayaraq tənbəl və qorxaq adamları isə görməyə gözü yoxdur.

Aydın Quliyevin dənizçi peşəsini incəliklərini öyrətdiyi, həyat dərsi verdiyi gənclər bu gün Gəmiçiliyin müxtəlif gəmilərində ölkəmizin iqtisadi qüdrətinin artırılmasına töhfələrini verirlər.

Dəniz Nəqliyyatı Donanması üzrə 2015-ci ilin "Ən yaxşı kapitan"ını təbrik etdim. Söhbət zamanı hiss etdim ki, bu ad ömrünün otuz doqquz ilini çətin olduğu qədər də şərəfli peşəyə bağlayan kapitana qol-qanad versə də, onu zərrə qədər də arxayınlaşdırmır, əksinə, məsuliyyətini daha da artırır.

Aydın Quliyev həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı Xatirə xanımla iki övlad böyüdüb. Qızı Aygün tələbədir, oğlu Elşən isə ordu sıralarında xidmətini təzə başa vurub. Kim bilir, bəlkə o da ulu babasının açdığı, atasının davam etdirdiyi yolla bir gün Xəzərə üz tutdu...

**Rasif TAHİROV**

## Respublikanın çaylarında və transsərhəd çaylarda mövcud vəziyyət açıqlanıb

**Hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 150-210, Kiçik Qafqazın çaylarında 195-205, Lənkəran-Astara bölgəsi çaylarında isə 50-140 faizini təşkil edir.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 8-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 6 sm artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi 125 $m^3$/s olmaqla ongünlük normanın 77 faizini təşkil edir. 2015-ci ildə isə bu rəqəm 135 $m^3$/s olmaqla ongünlük normanın 83 faizini təşkil edib.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 1 sm artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi 37 $m^3$/s olmaqla, ongünlük normanın 52 faizini təşkil edir. 2015-ci ildə isə bu göstərici 50 $m^3$/s təşkil edərək ongünlük normanın 71 faizinə bərabər olub.

Yanvarın 8-də Kür çayının aşağı axınında suyun səviyyəsində əsasən artım müşahidə olunub. Belə ki, Kür çayının Şirvan məntəqəsində 2, Salyanda 13, Araz çayının Novruzlu məntəqəsində 7 sm artım, Surrada 4, Bankədə isə 2 sm azalma qeydə alınıb.

Hazırda Surra məntəqəsində suyun səviyyəsi 456 sm, Şirvanda 351 sm, Salyanda 305 sm, Bankədə 231 sm, Araz çayının Novruzlu məntəqəsində isə 195 sm təşkil edir.

# 2015: Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası üçün uğurlu il

**2015-ci il Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası üçün uğurlu il olub. Administrasiya fəaliyyətində qabaqcıl ölkələrin dəniz nəqliyyatı sahəsindəki təcrübəsini öyrənməklə, bu təcrübənin tətbiqi məsələlərinə xüsusi yer ayırıb. Beynəlxalq Dəniz Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Avropa İttifaqı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq qurumlarla əlaqələr genişləndirilib.**



Hesabat dövründə Azərbaycan Respublikasına mənsub dəniz limanlarına 16 min 401 gəminin girişi və 16 min 479 gəminin çıxışı rəsmiləşdirilib, xarici dövlətin bayrağı altında üzən 645 gəmiyə bələdçi xidməti göstərilib. Azərbaycan limanlarında xarici dövlətin bayrağı altında üzən 45 gəmi yoxlanılıb. Onlardan 20-si Rusiya Federasiyası, 18-i İran İslam Respublikası, 3-ü Qazaxıstan Respublikası və 4-ü isə Türkmənistan Respublikasına məxsus olub. Gəmilərdə beynəlxalq konvensiya və qaydaların tələblərinin pozulması ilə bağlı 300 uyğunsuzluq aşkar edilib. Nöqsanlar aradan qaldırılanadək 19 gəminin (3-ü Rusiya, 13-ü İran İslam Respublikası və 3-ü Türkmənistan) limanları tərk etməsinə qadağa qoyulub.

Xəzər dənizində Azərbaycan bayrağı altında üzən 29 gəmidə yeniləmə, 12 gəmidə ilkin, 15 gəmidə ara yoxlaması keçirilib. 74 gəmiyə Azərbaycan bayrağı altında üzmək hüququ, 22 gəmiyə mülkiyyət hüququ, 74 gəmiyə minimum heyət tərkibi, 41 gəmiyə neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyətin maliyyə təminatı, 43 gəmiyə əmniyyətli idarəetmə haqqında şəhadətnamə, 144 gəmiyə bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət ilə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında sertifikat, 19 gəmiyə gəmi reyestrindən çıxarış və 35 gəmiyə gəmi tarixinin fasiləsiz qeydlər sənədi, 3 gəmiçilik şirkətinə uyğunluq haqqında sənəd təqdim edilib. Dövlət Dəniz Administrasiyasının müraciəti ilə Kuk adaları "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə ("AXDG" QSC) məxsus 18 gəmiyə "Batmış gəmilərin çıxarılması haqqında" Beynəlxalq Nayrobi Konvensiyasının tələblərinə uyğun olaraq müvafiq şəhadətnamələr verib.

Müxtəlif təyinatlı 7 gəmi ilk dəfə, 25 gəmi isə təkrar olaraq Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində və Berboutçarter reyestrində qeydiyyata alınıb və 2 gəmi bu reyestrdən çıxarılıb. Bundan əlavə, 3 gəminin dənizdə insan həyatının mühafizəsinə dair təlim və məşğələ üzrə təlimatı, 93 gəminin yanğınla mübarizə planının sxemi, 2 gəminin gəmi qəza yedək əməliyyatları planı, 5 gəminin yüklərin bərkidilməsi üzrə rəhbərliyi, 2 gəminin yanğınla mübarizə üzrə təlimatı, 10 gəminin "gəmi mühafizə planı" təsdiq edilib. İki limana isə "Gəmi və Liman Vasitələrinin Mühafizəsi haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğunluq haqqında şəhadətnamə verilib.

Ötən dövrdə "AXDG" QSC-yə məxsus PS tipli gəmilərdə təkmilləşdirmə işləri aparıldıqdan sonra bortunda heyət üzvlərindən əlavə 71 nəfər sərnişinin daşınmasına icazə verilib. "Seacor Marine AZ" MMC-nin istismar etdiyi 3 gəmi və "Kaspian Marin Servisez Limited" şirkətinin Azərbaycandakı filialının istismar etdiyi 6 gəmi, eləcə də "AXDG" QSC-yə məxsus 4 gəmidə, həmçinin Fövqəladə Hallar Nazirliyinin Xəzər Hövzə Qəza-xilasetmə Xidmətinə məxsus "Svetlomor-2" gəmisində heyət üzvlərindən əlavə sərnişinlərin daşınmasına icazə verilib.

Dekabrın 4-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) "Günəşli" yatağının 10 nömrəli stasionar dərin dəniz özülündə baş vermiş güclü yanğınla ilə əlaqədar Dövlət Dəniz Administrasiyası müvafiq zəruri tədbirlər həyata keçirib. "AXDG" QSC-yə məxsus gəmilər axtarış-xilasetmə və nəticələrin aradan qaldırılmasına cəlb olunub, zəruri köməkliyin göstərilməsi təmin edilib. Ümumilikdə isə "Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi" bu il 8 mindən artıq gəminin naviqasiya ötürməsini həyata keçirib, 158 gəmiyə Mərkəzin təsdiqnaməsi verilib.

"Su nəqliyyatı ilə yük daşınması" və "Su nəqliyyatı ilə sərnişin daşınması"na xüsusi razılıq (lisenziya) verilməsi üçün ötən il ərzində heç bir müraciət daxil olmayıb. Bu sahəyə dair bütün sənədlər Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – "ASAN xidmət"ə təhvil verilib, 18 elektron xidmətlə bağlı məlumatlar bu mərkəzlərin elektron reyestrinə daxil olunub. Dövlət Dəniz Administrasiyasında elektron xidmətlərin təşkili üzrə qiymətləndirmə aparılaraq müsbət rəy bildirilib.

Keçən il Nazirlər Kabinetinin qərarları ilə "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları" və "Limanlarda qanunsuz müdaxilə aktı zamanı təhlükəsizliyin təmin edilməsi Qaydaları"nın layihələri təsdiq olunub. "Dəniz limanları haqqında" qanunun tələblərinin pozulmasına görə "İnzibati Xətalar Məcəlləsi"nə dəyişikliklər edilməsi barədə layihə hazırlanaraq Milli Məclisə təqdim edilib.

"Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında dəniz nəqliyyatına dair Saziş" imzalanaraq təsdiq edilib. Birləşmiş Ərəb Əmirliklərinin Quru və Dəniz Nəqliyyatı Federal Qurumu ilə Dəniz Nəqliyyatına dair Saziş layihəsi müzakirə olunub. Koreya Respublikasının Okeanlar və Balıqçılıq Nazirliyi arasında əməkdaşlıq və sertifikatların tanınması haqqında Anlaşma Memorandumlarına 2016-cı ilin 1-ci rübündə imza atılması qərara alınıb. "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı yeni tvinninq layihəsinin həyata keçirilməsi ilə bağlı İspaniya Krallığının İctimai İşlər və Nəqliyyat Nazirliyi ilə müqavilə imzalanıb. "Azərbaycan Rusiyanın Gəmiçilik üzrə Dəniz Registri" MMC ilə imzalanmış əməkdaşlıq müqaviləsinə bəzi dəyişikliklərin edilməsinə dair razılıq əldə olunub.

Keçən ildə "Dənizdə Əməyə dair" Beynəlxalq Konvensiyaya uyğun olaraq müxtəlif qurumların nümayəndələri üçün iki dəfə seminar təşkil edilib. Administrasiyanın tabeliyində olan "Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi"nin Dövlət Liman Nəzarəti müfəttişlərinə dənizçi sənədləri ilə bağlı təlimlər keçirilib. "Peşəkarlıq və fərdi məsuliyyətin artırılması" və "Məlumatlardan istifadə" mövzularında treninqlər təşkil olunub. Beynəlxalq Dəniz Təşkilatlarının Dəniz Təhlükəsi Komitəsinin 93-cü sessiyasında Beynəlxalq Konvensiya və Beynəlxalq Məcəllələrə edilmiş əlavə və dəyişikliklərin 1 yanvar 2016-cı ildən qüvvədə olacağı barədə dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən şirkət və təşkilatlara müvafiq məktublar göndərilib.

Dövlət Dəniz Administrasiyasının əməkdaşları 20 beynəlxalq təlim və 24 beynəlxalq tədbirdə iştirak ediblər. Bütün bunlar qabaqcıl ölkələrin dəniz nəqliyyatı təcrübəsinin öyrənilməsinə hesablanıb. Dənizçilərə 1413 sertifikat və diplom, 12629 xüsusi hazırlıq şəhadətnaməsi verilib. 1542 dənizçiyə şəxsiyyət vəsiqəsi, 485 dənizçiyə qeydiyyat kitabçası təqdim edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya təqdim olunan 23 vakant yer üzrə müsabiqə elan edib və müvəffəqiyyət qazanan 5 namizəd şəffaflıq gözlənilməklə müvafiq vəzifələrə təyin olunub. "Rusiya Təsnifat Cəmiyyəti"nin müstəqil ekspertləri Dövlət Dəniz Administrasiyası və Azərbaycan Dövlət Dəniz Akademiyasında yoxlamalar həyata keçirib. Nəticələr Beynəlxalq Dəniz Təşkilatının Baş katibinə təqdim edilib.

Hesabat dövründə ictimaiyyətlə əlaqələrin gücləndirilməsi, korrupsiyaya şərait yaradan halların aşkar edilməsi və onların aradan qaldırılması, habelə Azərbaycanda dəniz nəqliyyatı sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi, baş verə biləcək və baş vermiş fövqəladə halların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi üçün dəniz nəqliyyatı qurumları, digər təşkilatlar və vətəndaşlarla operativ əlaqənin təşkili məqsədi ilə Dövlət Dəniz Administrasiyasında hər gün 24 saat olmaqla həftənin 7 günü "Qaynar xətt" rabitə əlaqəsi (012) 497-44-05 fəaliyyətdədir. Hesabat dövrü ərzində Dövlət Dəniz Administrasiyasının rəsmi şəxsləri qrafik tərtib edilməklə vətəndaşların qəbulunu ləngitmədən həyata keçirib.

# Xəzər suitisi tükənirmi?

## Mübarizə tədbirləri və müasir vəziyyət



Vəziyyətlə mübarizə aparmaq üçün sahillərdəki ölkələrdə müxtəlif addımlar atılır. Azərbaycanda Şahdili xüsusi rejimlə qorunur, ictimaiyyətin maarifləndirilməsi üçün tədbirlər həyata keçirilir. Abşeron yarımadası və digər sahillərdə suların təmizlənməsi məqsədilə Prezident İlham Əliyev 20 iyun 2007-ci ildə Xəzər dənizinin çirklənmədən qorunması üzrə tədbirlər haqqında sərəncam imzalayıb. Sənədə əsasən modul tipli çirkab sutəmizləyici qurğuların quraşdırılması və istifadəyə verilməsi üçün 3,5 milyon manat ayrılıb. Növbəti il iyunun 13-də bu məbləğ 2 milyon manat artırılaraq təmizləmə işləri daha da genişləndirilib. Qurğular artıq bəzi sahilyanı kənd və qəsəbələrdə quraşdırılıb və fəaliyyət göstərir. 2011-ci il aprelin 26-da AMEA-nın illik hesabat toplantısında akademik Akif Əlizadə Xəzəri öyrənən elmi-tədqiqat mərkəzinin yaradılması təklifini irəli sürüb. Üç gün sonra Azərbaycan Prezidenti Bakıda müştərək tədqiqatlar üçün Xəzər Elmi-Tədqiqat Mərkəzinin yaradılması barədə sərəncam imzalayıb.

2014-cü il noyabrın 18-də Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyinin əmri ilə suitilərin balaladığı dövrdə - 25 yanvardan 31 marta qədər, həmçinin buz örtüyünün əmələ gəldiyi vaxtda - 1 oktyabrdan 30 noyabra qədər ov qadağan edilib. Lakin sənəddə qadağanın həmin dövrlərdən sonrakı aylara şamil edilmədiyi xüsusi vurğulanır.

Qaldırılan həyəcan və görülən işlər vəziyyəti azacıq düzəldib. Belə ki, "qırmızı siyahı"da status dəyişdikdən sonrakı balaların sayı 6 mindən 19 minə qalxıb. 2011-2012-ci ilin qışında isə 16 min olub. T.Eybatov da son 7 ildə artım hiss edərək hesab edir ki, hazırda dənizdə ümumən 100 minə qədər suiti var. Onların artımını əvvəlki Abşeron məskənlərində antropogen səbəblərdən görmək çətindir.

Rusiyanın Dağıstan Respublikasının təhsil üzrə hüquqşünası İlya Ermolin bu ilin martında Moskvada keçirilmiş Xəzər suitiləri ilə bağlı konfransda bildirib ki, Mahaçqaladan şimalda bu heyvanları ovlayan və məhsul kimi istifadə edən şirkətlər var.

Şotlandiyanın Suitilərin Mühafizəsi Cəmiyyəti 2011-ci ildə "Xəzər suitilərinin mühafizəsi" layihəsinin fəallarından biri, rusiyalı mütəxəssis Liliya Dmitriyevanın araşdırmalarına istinadən bildirib ki, dənizin şimalında hər il 12 min suiti qanunsuz ağbalıq ovu üçün qurulan torlara düşür və öldürülür. Bu, hazırda davam edən nəsil azalmasının ən ciddi faktorudur. Qazaxıstanda yerləşən Şimali Xəzər Əməliyyat Şirkəti (ŞXƏŞ) də suitilərlə bağlı apardığı tədqiqatların ən son nəticəsini 2013-cü ilin aprelində açıqlayaraq, onların azalmasına təsir edən amillər sırasında birinci olaraq ov torlarını göstərir.

T.Eybatov da həmkarları kimi düşünərək, Moskva konfransındakı çıxışında təkliflərin sırasında suitilərin ovlanmasına və torla tutulan qanunsuz balıq ovlarına nəzarətin artırılmasını ilk sıralarda sadalayıb. O, Çilov və ona yaxın adalarda suitilərin məhv edilməsinin qarşısının alınmasını da vacib hesab edib. Azərbaycan alimi ovların, çirklənmə və yem azlığının kompleks şəkildə təşkil etdiyi səbəbi daha güclü amil kimi qiymətləndirir.

Xəzər milyon illər ərzində iqlim və geoloji proseslərin təsirinə məruz qalaraq qapalı hala düşüb, bioloji aləmi ilə birgə təcrid həyatı yaşayır. Qapalı olduğuna görə suları yuyulmur, canlıları dünya okeanından artım dəstəyi ala bilmir. Suitilərin azalması dünya sularına çıxışı olan dənizlərdə də müşahidə olunur. Amma mühafizə tədbirləri nəticəsində yenidən artırlar. Xəzərin isə ümumi vəziyyəti, təəssüf ki, təbii və antropogen təsirlər qarşısında daha sürətlə ağırlaşır və gələcək üçün nikbin heç nə demir.

**S.HÜSEYNOV**

*(Əvvəli ötən nömrədə)*

# CƏSUR TƏLƏBƏ

**Böyük mütəfəkkir Cordano Brunonun sözüdür: "Həyatda qəhrəmanlığa həmişə yer var." Qəhrəmanlığa aparan yol isə adətən ailədən, məktəbdən keçir.**

Dekabrın 8-də Milli Parkda "Günəşli" yatağının 10 saylı stasionar dərin dəniz özülündə baş vermiş qəza nəticəsində həlak olanların xatirəsinin anım mərasimi keçirilirdi. Həlak olanların xatirəsini yad etmək üçün Milli Parka axışanlar göz yaşları içərisində faciə qurbanlarını anır, sahilə güllər düzür, dənizə qərənfillər səpirdilər. Aksiyaya ilkin qoşulanlar, həlak olanların və itkin düşənlərin ailələri ilə kədəri bölüşmək, onların dərdinə şərik olmaq istəyənlər arasında Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri də az deyildi.

– Həmin gün mən də dərsdən sonra qrup yoldaşım Səbuhi ilə aksiya keçirilən yerə tələsdik, - deyə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Nəqliyyat tikintisi mühəndisi" ixtisasına yiyələnən dördüncü kurs tələbəsi Elvin Məmiyev söhbətə başladı. – Təzə çatmışdıq ki, estakadanın yaxınlığında bir qızın dənizdə çapaladığını, onu xilas etməyə çalışan gəncin



isə bütün səylərinin fayda vermədiyini gördüm. Daha heç nə fikirləşmədim, dərhal suya atıldım...

Sonra nə baş verdiyini tələbə yoldaşı Səbuhi bizə danışdı:

– Elvin qızı suyun üzünə qaldırdı. O biri gənclə sahildən verilən rezin su şlanqını qızın belinə bağladılar. Sonra Elvin su şlanqı ilə qızı sudan çıxarmağa cəhd etdi. Lakin rezin şlanq ağırlığa tab gətirməyib, qırıldı. Dövlət Sularda Xilasetmə Xidmətinin kateri gələnə kimi Elvin üzə bilməyən qızı boğulmaması üçün suyun üzərində saxlamağa çalışdı...

Elvin Məmiyev 1994-cü il iyunun 20-də Xızı rayonunun Yeni Yaşma qəsəbəsində anadan olub. Ailədə 2 qardaş,1 bacıdırlar. Atası Füzuli bənna, anası evdar qadındır. Təhsil ocağında onu yüksək mənəvi keyfiyyətlərə malik gənc kimi xarakterizə edirlər.

Düşmənli məmləkətimiz, işğal altında qalan torpaqlarımız bizdən cəsur, vətənpərvər, yurdsevər övladlar yetişdirməyi tələb edir. Müqəddəs amallar uğrunda canlarından keçməyə qadir cavanlar isə gündəlik həyatda da çətinliyə düşənlərə həmişə kömək etməyə hazır olurlar. Cəsarəti bu yazının qələmə alınmasına səbəb olan Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi Elvin Füzuli oğlu Məmiyev kimi!

**"DƏNİZ"**

# Satılan mənzilin sahəsinə görə vergi tutulacaq

**Azərbaycanda ev satışından vergi tutulması qaydaları dəyişib. Bundan sonra evin neçəyə satılmasının vergi hesablanmasına aidiyyəti olmayacaq. Vergi, satılan evin sahəsinə görə tutulacaq.**

Daşınmaz əmlakın təqdim olunmasından əldə edilən gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması.



Vergi Məcəlləsinin dəyişikliklərdən əvvəl qüvvədə olan müddəalarına əsasən, mənzillərin və digər daşınmaz əmlakların təqdim edilməsindən, sadə dillə desək, satılmasından əldə olunan gəlirlər əmlakı təqdim edən şəxs tərəfindən vergi orqanlarına müvafiq bəyannamə təqdim edilməklə vergiyə cəlb olunurdu. Əksər hallarda satılan bu cür daşınmaz əmlakların alınmasına, tikintisinə, təmirinə çəkilən xərcləri təsdiq edən sənədlər olmurdu. Bu isə alqı-satqı əməliyyatlarından əldə edilən gəlirlərin vergiyə cəlb olunmasında müəyyən çətinliklər yaradırdı. Vergi məcəlləsinə edilmiş dəyişikliklərlə daşınmaz əmlakın təqdim olunması üzrə müqavilələri təsdiq edən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması, 1 bank günü ərzində dövlət büdcəsinə ödənilməsi və aylıq bəyannamənin vergi orqanına təqdim edilməsi nəzərdə tutulur. Nəticədə daşınmaz əmlakın təqdim olunmasından gəlir əldə edən şəxslərin vergu uçotuna alınması və onlar tərəfindən müvafiq bəyannamənin vergi orqanına təqdim edilməsi zərurəti aradan qalxmış olur.

Bu zaman nəzərə alınmalıdır ki, notariuslar tərəfindən tutulan bu vergi sadələşdirilmiş verginin xüsusi bir növüdür və bəyannamənin həm forması, həm də hesabat dövrü ümumi sadələşdirilmiş vergi bəyannaməsindən fərqlənir. Bu bəyannamənin forması daha sadədir, təqdim olunma dövrü isə aylıq olacaqdır. Notariuslar tərəfindən təqdim edilməli bəyannamələrin yeni forması artıq Vergilər Nazirliyi tərəfindən təsdiq olunub.

Fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində nəzərdə tutulan ailə üzvləri (ər-arvadlar, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, vərəsələr, doğma (ögey) bacılar (qardaşlar), bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları (qardaşları), qəyyumlar və qəyyumluğa götürülənlər, onların arasındakı ev təsərrüfatı birliyi nəticəsində biri o biri ilə valideyn və övlad kimi bağlı olduqda) tərəfindən verilməsi, daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması, əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi ödəmə mənbəyində vergidən azad edilir.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər vergini hər kvadratmetr sahəyə görə 15 manata müvafiq əmsallar tətbiq etməklə ödəyəcəklər. Həmin əmsallar Vergi Məcəlləsində təsbit edilib. Vergi yaşayış və qeyri-yaşayış sahəsinin ümumi sahəsinə görə hesablanacaq. Qeyri-yaşayış sahələrinin təqdim olunması zamanı isə vergi məbləği əlavə 1,5 əmsal tətbiq edilməklə hesablanacaq.

Bu mexanimzi misallarla izah edək. Təsəvvür edək ki, bir nəfər fiziki şəxs mülkiyyətində olan və Bakı şəhəri üzrə 2-ci zonada (3,0 əmsal) yerləşən 100 kvadratmetr sahəsi olan mənzilini və 3-cü zonada (2,2 əmsal) yerləşən 150 kvadratmetr sahəsi olan ticarət obyektini alqı-satqıya təqdim etmişdir. Bu zaman alqı-satqı əməliyyatlarını rəsmiləşdirən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş veginin məbləği aşağıdakı kimi hesablanır:

Mənzilin satışı üzrə: 100 kv.m. x 15 man. x 3 zona əmsalı =4500 manat;

Ticarət obyektinin satışı üzrə: 150 kv.m. x 15 man. x 2,2 zona əmsalı x 1.5 əmsal =7425 manat;

Cəmi ödənilməli vergi: 11.925 manat.

Qeyd edək ki, Azərbaycanda daşınmaz əmlakın təqdim olunmasından əldə edilən gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması həm fiziki, həm də hüquqi şəxslərə tətbiq ediləcək.

**Tahir DADAŞOV**

# Təhlükəli şəhərlər

**Almaniyanın Alfred Vegener adına Qütb və Dəniz Tədqiqatları İnstitutu dünyanın ən təhlükəli 10 şəhərinin adını açıqlayıb. Siyahı zəlzələ, sunami və vulkan püskürmələri kimi təbii fəlakətlər nəzərə alınaraq hazırlanıb. Dünyanın ən təhlükəli on şəhəri aşağıdakılardır:**

1. Tokio (Yaponiya): 38 milyon əhalisi olan şəhər son dərəcə aktiv tektonik fay xəttində yerləşir. Bura dünyada ən dağıdıcı zəlzələlərin olduğu bölgədir.

2. Osaka (Yaponiya): 11 milyon əhalisi olan şəhər Tokio kimi eyni təhlükəli zəlzələ xəttində yerləşir. Burada son böyük zəlzələ 1995-ci ildə baş verib və 6 mindən çox adam həyatını itirib.

3. Jakarta (İndoneziya): 30 milyon əhalisi olan Jakarta da zəlzələ bölgəsində yerləşir. Jakartanın böyük hissəsi dəniz səviyyəsindən aşağıdadır. Bu isə şəhəri zəlzələdən sonra yarana biləcək sunami təhlükəsi ilə qarşı-qarşıya qoyur.

4. Naqoya (Yaponiya): Əhalisi 2,5 milyon olan Naqoya da Tokio və Osaka kimi zəlzələ bölgəsində yerləşir.



5. Los-Anceles (ABŞ): Əhalisi 12,8 milyon olan Los-Anceles aktiv tektonik fay xətti üzərində yerləşir. Bölgədə çoxlu sayda nüvə stansiyası var.

6. San-Fransisko (ABŞ): Əhalisi 4,5 milyon olan San-Fransisko da aktiv tektonik fay xətti üzərindədir. 1906-cı ildə baş verən son böyük zəlzələdə 3 minə yaxın adam həyatını itirib. Zəlzələ mütəxəssislərinə görə, şəhərdə hər an güclü zəlzələ ola bilər.

7. Tehran (İran): Əhalisi 8,5 milyon olan Tehran zəlzələ fay xəttinin üzərində yerləşir. Binaların zəlzələyə qarşı kifayət qədər davamlı olmaması təhlükəni artırır.

8. Manila (Filippin): Əhalisi 11,9 milyon olan Manila da eyni şəkildə böyük zəlzələ təhlükəsi olan şəhərlərdən biridir. Sıx əhalisi və zəlzələyə davamlı binaların az olması təhlükəni artırır.



9. İstanbul (Türkiyə): Əhalisi 14,3 milyon olan İstanbul Asiya və Avropa tektonik faylarının üzərində yerləşir. İstanbulda 2025-ci ilə qədər güclü zəlzələ baş verməsi ehtimalı olduqca yüksəkdir. Burada da əhalinin sıx olması və binaların zəlzələyə qarşı davamsız olması təhlükəni artırır.

10. Napoli (İtaliya): Əhalisi 1 milyon olan şəhərin altında böyük bir magma yatağı mövcuddur. Mütəxəssislər təzyiq altında olan magmanı super vulkan kimi qiymətləndirirlər. Napolidə yaxın vaxtlarda vulkanik partlayışın baş vermə ehtimalı yüksəkdir.

# Ailənin ilki daha ağıllı olur?

**Çox vaxt ailədəki ən böyük övlad daha yüksək İQ səviyyəsinə malik olur. Bununla bərabər, növbəti uşağın intellekt əmsalı öz böyük qardaş və bacısına nisbətən az olur. Hər halda, almaniyalı alimlər belə düşünürlər. Belə qənaətə isə onlar 20 mindən çox adamın iştirakilə keçirilən üç müxtəlif tədqiqatın nəticələrini öyrəndikdən sonra gəliblər.**

Tədqiqatçıların fikrincə, intellekdəki fərq bioloji amillərlə deyil, psixoloji tərbiyə ilə müəyyən edilir. Belə ki, əksər hallarda kiçik uşaqlar istədikləri işlərlə məşğul olmaq üçün daha çox sərbəstliyə malik olurlar. Amma uğur qazanması üçün böyük uşağı daha çox oxumağa məcbur edirlər.

Bundan əlavə, alimlər güman edirlər ki, aşkar edilmiş qanunauyğunluq həmçinin valideynlər tərəfindən lazımi diqqətin olmaması ilə də izah edilir: onlar əvvəlcə ilk uşağa daha çox diqqət yetirir, sonra isə uşaqlar arasında "parçalanırlar".



Bununla belə, alimlər inanırlar ki, kiçik qardaş və bacıların narahat olmasına dəyməz: onların İQ səviyyəsindəki fərq çox böyük deyil, ilk övladın ağıllı olmaq şansı isə 6:1 nisbətindədir.

**Tahir DADAŞOV**

İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Ответственность судовладельца — Gəmi sahibinin məsuliyyəti
### SHIPOWNER'S LIABILITY

Судовладелец как перевозчик несет ответственность по своим обязательствам, вытекающим из договора морской перевозки. Условия и пределы ответственности судовладельца определяются чартером, коносаментом и действующим законодательством. Основным международным нормативным актом, определяющим объем ответственности судовладельцев при перевозке грузов по коносаментам, являются Гаагские правила.

Gəmi sahibi daşıyıcı kimi dənizlə yük daşınması müqaviləsindən irəli gələn öhdəlikləri üzrə məsuliyyət daşıyır. Gəmi sahibinin məsuliyyətinin şərtləri və hədləri çarterlə, konosamentlə və qüvvədə olan qanunvericiliklə müəyyən edilir. Yüklərin konosamentlər üzrə daşınması zaman gəmi sahiblərinin məsuliyyətinin həcmini müəyyənləşdirən əsas beynəlxalq normativ akt Haaqa qaydalarıdır.

### От двери до двери — Qapıdan qapıyadək
### DOOR TO DOOR

Современный способ доставки грузов со складов (завода, фабрики и т. п.) отправителя до склада (или другого согласованного места) получателя. Обычно такой способ транспортировки обеспечивается посредством контейнерных перевозок грузов. Перевозки «от двери до двери» оформляются документами, покрывающими доставку грузов данным способом (door to door documentations).

Yükgöndərənin anbarlarından (zavoddan, fabrikdən və s.) yüklərin yükalanın anbarına (və ya razılaşdırılmış digər yerə) çatdırılmasının müasir üsulu. Adətən, nəqletmənin bu üsulu yüklərin konteynerlərdə daşınması ilə təmin edilir. “Qapıdan qapıyadək” daşınmalar yüklərin bu üsulla çatdırılmasını təmin edən sənədlərlə rəsmiləşdirilir (door to door documentations)

### Открытое море — Açıq dəniz
### THE HIGH SEA

Морское пространство, которое не входит ни в территориальные воды, ни во внутренние воды, ни в архипелажные воды какого-либо государства. Основу правового режима открытого моря составляет принцип свободы открытого моря. Это означает, что на открытое море не распространяется суверенитет какого-либо государства: оно открыто для общего, равного и свободного пользования всеми, как прибрежными, так и не имеющими выхода к морю, государствами. Ни одно государство не вправе претендовать на осуществление суверенитета над открытым морем или его частями, а также создавать препятствия др. государствам для пользования им. В открытом море действует принцип исключительной юрисдикции государства флага судна, т.е. судно пользуется иммунитетом от юрисдикции др. государств. Особый международно-правовой режим действует в пределах исключительной экономической зоны, являющейся, несмотря на это, районом открытого моря.

Hər hansı bir dövlətin nə ərazi sularına, nə daxili sularına, nə də arxipelaq sularına daxil olmayan dəniz məkanı. Açıq dənizin hüquqi rejiminin əsasını açıq dənizin azadlığı prinsipi təşkil edir. Bu onu bildirir ki, açıq dənizə hər hansı bir dövlətin suverenliyi şamil edilmir: o, hamının - həm sahilyanı, həm də dənizə çıxışı olmayan dövlətlərin ümumi, bərabər və sərbəst istifadə etməsi üçün açıqdır. Heç bir dövlətin açıq dəniz və ya onun hissələri üzərində suverenliyini həyata keçirmək üçün iddia qaldırmaq, habelə ondan istifadə etməyə görə digər dövlətlərə maneə yaratmaq hüququ yoxdur. Açıq dənizdə gəminin bayrağı altında üzdüyü dövlətin müstəsna yurisdiksiyasının prinsipi qüvvədə olur, yəni gəmi orada digər dövlətlərin yurisdiksiyalarına qarşı toxunulmazlıq hüququndan istifadə edir. Xüsusi beynəlxalq-hüquqi rejim müstəsna iqtisadi zona hüdudlarında fəaliyyət göstərir, baxmayaraq ki, bu zona açıq dəniz rayonudur.

### Открытая ставка — Açıq tarif
### OPEN RATE

Пометка в линейном тарифе, означающая, что на данный груз ставка не установлена и подлежит согласованию между перевозчиком и грузоотправителем в ходе переговоров о бронировании груза. Обычно открытая ставка относится к нехарактерным для линейного судоходства грузам, представляющим для него второстепенный интерес с точки зрения их доходности, но в ряде случаев желательных с позиций рациональной загрузки судна.

Xətti tarifdə qeyd, müəyyən yük üçün tarifin müəyyənləşdirilmədiyini və yükün bronlanması haqqında danışıqların gedişində onun daşıyıcı ilə yükgöndərən arasında razılaşdırılmalı olduğunu bildirir. Açıq tarif adətən xətti gəmiçilik üçün xarakterik olmayan yüklərə aid edilir. Bu yüklər gəlirliyinə görə gəmi üçün ikinci dərəcəli əhəmiyyət kəsb etsə də, ancaq bir sıra hallarda gəminin səmərəli yüklənməsi baxımından arzuolunandır.

### Открытый чартер — Açıq çarter
### OPEN CHARTER

Чартер, в котором не указаны род груза и порт назначения: используется в тех случаях, когда фрахтователь по тем или иным соображениям не желает называть груз и порт назначения либо еще не знает, с каким грузом и куда будет направлено судно, которое он фрахтует заблаговременно с целью резервирования тоннажа. Обычно ставки фрахта по открытому чартеру значительно выше обычных.

Yükün növünün və təyinat limanının qeyd edilmədiyi çarter: fraxtedənin bu və ya digər mülahizələrə görə yükün və təyinat limanının adını bildirmək istəmədiyi, yaxud onun əvvəlcədən tonnajı ehtiyatda saxlamaq məqsədi ilə fraxta götürdüyü gəminin hansı yüklə hara istiqamət götürəcəyini bilmədiyi hallarda istifadə edilir. Açıq çarter üzrə fraxt dərəcələri adətən adilərdən xeyli yüksək olur.

### От причала до двери — Körpüdən qapıyadək
### PIER TO HOUSE

Условие доставки грузов, обычно в контейнерах, когда груз доставляется с причала страны экспортера до склада (предприятия «двери» и т.п.) грузополучателя. Согласно этому условию начисляется и фрахтовая ставка.

Adətən konteynerlərlə yüklərin çatdırılması şərti; bu halda yük ixracatçı ölkənin körpüsündən yükalanın anbarınadək (“qapı” müəssisəsinə və s.) çatdırılır. Bu şərtə müvafiq olaraq fraxt dərəcəsi də hesablanır.

### Оферта — Oferta
### OFFER

В торговом мореплавании предложение о заключении фрахтовой сделки на определенных условиях. Различаются твердые и условные оферта. Сущность твердой оферты (firm offer) заключается в том, что она подается лишь одному партнеру, который может акцептовать ее, но в течение определенного времени. Твердая оферта ограничивается сроком (от нескольких часов до суток) для ответа. Подтверждение оферты должно быть «чистым», т.е. не содержать встречных предложений, которые считаются контрофертой и отклоняют либо изменяют условия самой оферты. Условная или свободная оферта (subject open) не связывает сторону, ее подавшую, изложенными в ней условиями. Такая оферта подается обычно нескольким фрахтователям с целью выявления возможностей рынка и выбора наиболее приемлемого варианта сделки.

Ticarət gəmiçiliyində fraxt müqaviləsinin müəyyən şərtlərlə bağlanılması barədə təklif. Qəti və şərti oferta fərqləndirilir. Qəti ofertanın (firm offer) mahiyyəti ondan ibarətdir ki, bu oferta onu müəyyən vaxt ərzində akseptləşdirə bilən yalnız bir tərəfdaşa verilir. Qəti oferta cavabın verilməsi üçün müddətlə (bir neçə saatdan sutkaya qədər) məhdudlaşdırılır. Ofertanın təsdiqi “təmiz” olmalıdır, yəni onda əksoferta hesab edilən və ofertanın özünün şərtlərini rədd edən, yaxud dəyişdirən qarşılıqlı təkliflər olmamalıdır. Şərti və ya sərbəst oferta (subject open) onu verən tərəfi onda şərh olunan şərtlərlə bağlamır. Belə oferta adətən bir neçə fraxtedən tərəfindən bazarın imkanlarını aşkar etmək və sövdələşmənin daha məqbul variantını seçmək məqsədi ilə verilir.

## П

### Паллет — Pallet
### PALLET

Платформа или настил, набитый на две планки. Позволяет укрупнять генеральные грузы с целью ускорения и удешевления их обработки. Наиболее часто используются паллеты размером 40х48 дюймов. Используются также размеры паллетов согласно стандартам ИСО: 32х40 дюймов, 32х48 дюймов, 48х64 дюйма, 48х72 дюйма.

İki tamasaya (plankaya) vurulmuş platforma və ya döşənək. Əsas yüklərin yüklədilib-boşaldılmasını sürətləndirmək və ucuzlaşdırmaq məqsədi ilə onların birləşdirilərək iriləşdirilməsinə imkan verir. Daha çox 40x48 düym ölçülərə nalik palletlərdən istifadə olunur. Habelə İSO standartlarına müvafiq olaraq 32x40 düym, 32x48 düym, 48x64 düym, 48x72 düym ölçülü palletlərdən də istifadə edilir.

### Палубный груз — Göyərtə yükü
### DECK CARGO

Грузы, перевозимые на открытой палубе и в защищенных местах судна, которые не вошли в измерение брутто и нетто-тоннажа. Риск перевозки палубного груза лежит на фрахтователе, держателе коносамента, грузоотправителе (в зависимости от условий договора перевозки) в то время, как обеспечение надежного крепления груза лежит на судовладельце (перевозчике).

Açıq göyərtədə və gəminin brutto və netto-tonnaj ölçmələrinə daxil edilməmiş dalda yerlərində daşınan yüklər. Göyərtə yükünün daşınması fraxtedənin, konosament saxlayanın, yükgöndərənin (yükdaşıma müqaviləsinin şərtlərindən asılı olaraq) riskində, yükün etibarlı bərkidilməsinin təmin edilməsi isə gəmi sahibinin (daşıyıcının) riskindədir.

*(Davamı var)*

## Körpələrdə nitqin inkişafının daha effektiv üsulu tapılıb



**Xüsusi olaraq müxtəlif sözləri körpələri üçün təkrar edən valideynlərin uşaqları sonralar daha yaxşı danışır və daha çox söz ehtiyatına malik olurlar.**

Bu nəticəyə Harvard və Merilend Universitetlərinin (ABŞ) tədqiqatçıları gəliblər. Onlar anaların yeddiaylıq körpələri ilə necə danışdıqlarını müşahidə ediblər. Alimlər körpələrin dili anlamaq qabiliyyətini, iki yaşdan sonra isə həmin uşaqların söz ehtiyatını dəyərləndiriblər. Daha yaxşı dil vərdişləri olan uşaqlar öz həmyaşıdlarından fərqləniblər: bu uşaqların valideynləri onlara müxtəlif sözləri təkrar-təkrar deyiblər, uşaqların özləri isə daha çox diqqətlərini özlərinə deyilən sözlərə cəmləyib və nəticədə nitqi daha yaxşı analiz ediblər.

“Körpələr üçün tez-tez müxtəlif sözləri təkrarlayan valideynlərin yeddiaylıq uşaqları bir il-bir il yarımdan sonra daha yaxşı dil vərdişləri nümayiş etdirirlər. Bu yaxınlara kimi hesab edilirdi ki, sadəcə olaraq, uşaqla danışmaq lazımdır, lakin bu danışığın məhz necə olması dəqiqləşdirilmirdi”- tədqiqatın müəlliflərindən biri Roşel Nyuman bildirib.

Tədqiqatçılar ümid edirlər ki, onların gəldikləri nəticə valideynlərə kömək edəcək. Valideynlər bir qayda olaraq, körpələri ilə ləng və sözləri uzada-uzada danışırlar, yeni nəticələrə görə isə, onlar sözləri dəfələrlə təkrarlayaraq uşaqlarda dil vərdişlərini effektiv şəkildə formalaşdıra bilərlər. Almaniyalı alimlər əmindirlər ki, körpələr ana dilin səsləri ilə artıq hamiləliyin son aylarında tanış olurlar, çünki onlar bətndən kənarda nə baş verdiyini eşidirlər. Buna görə də yeni doğulmuş körpə ağlayan vaxt ana dilinin intonasiyasını təkrar edə bilir.

## İntellektual səviyyə beynin ölçüsündən asılı deyil

**Avstraliya alimləri bildiriblər ki, baş beynin ölçüsü onun sahibinin intellektual səviyyəsinə heç bir təsir göstərmir.**

Mütəxəssislər 8 mindən çox könüllünün iştirakı ilə 150-dək tədqiqat apardıqdan sonra belə qənaətə gəliblər. Eksperiment iştirakçılarının maqnit-rezonans tomoqrafiyası aparılıb. Sonra isə onlar intellekt səviyyələrinin müəyyən edilməsi üçün testdən keçiblər. Nəticədə məlum olub ki, insanın intellektual inkişafı beynin həcmi ilə bağlı deyil. Araşdırmalar nəticəsində o da sübut olunub ki, intellekt cinsdən də asılı deyil. Qadınların beyni ölçüsünə görə kişilərin beynindən kiçikdir. Amma demək olmaz ki, onlarda intellektual səviyyə kişilərdən aşağıdır.



## Səs-küy insan ömrünü qısalda bilər

**Pensilvaniyadakı (ABŞ) Sethon Hill İnstitutunda Mark Endürsün rəhbərliyi ilə alimlər qrupu səs-küyün insan orqanizminə təsiri ilə bağlı tədqiqat keçirib. Nəticələr göstərib ki, səs-küy insanı “dəli edə” və sağlamlıqla bağlı ciddi problemlər yarada bilər. Tədqiqat başa çatdıqdan sonra alimlərin gəldikləri nəticələrə görə, avtomobil maqnitafonlarından çıxan səs qan təzyiqinin artmasına və hətta bunun nəticəsində hipertonik böhrana gətirib çıxara bilər.**

İnsanın tab gətirə biləcəyi maksimum səs-küy səviyyəsi altı desibeldir. Amerikalı alimlər qeyd ediblər ki, səs dalğalarının insana bu gücdə təsiri ölümlə nəticələnə bilər.

**Tahir DADAŞOV**

# TƏQVİM 2016

| | YANVAR | FEVRAL | MART | APREL | MAY | İYUN | |
|---|---|---|---|---|---|---|---|
| Be | 4 11 18 25 | 1 8 15 22 29 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | Be |
| Ça | 5 12 19 26 | 2 9 16 23 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | Ça |
| Ç | 6 13 20 27 | 3 10 17 24 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | Ç |
| Ca | 7 14 21 28 | 4 11 18 25 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | Ca |
| C | 1 8 15 22 29 | 5 12 19 26 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | C |
| Ş | 2 9 16 23 30 | 6 13 20 27 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | Ş |
| B | 3 10 17 24 31 | 7 14 21 28 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | B |

| | İYUL | AVQUST | SENTYABR | OKTYABR | NOYABR | DEKABR | |
|---|---|---|---|---|---|---|---|
| Be | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | Be |
| Ça | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | Ça |
| Ç | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | Ç |
| Ca | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | Ca |
| C | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | C |
| Ş | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | Ş |
| B | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | B |

**1, 2 yanvar** Yeni il bayramı
**20 yanvar** Ümumxalq hüzn günü
**8 mart** Beynəlxalq Qadınlar günü
**20-24 mart** Novruz bayramı
**9 may** Faşizm üzərində Qələbə günü
**28 may** Respublika günü
**15 iyun** Milli Qurtuluş günü
**26 iyun** Azərbaycan Silahlı Qüvvələri günü
**6, 7 iyul** Ramazan bayramı
**12, 13 sentyabr** Qurban bayramı
**9 noyabr** Dövlət Bayrağı günü
**31 dekabr** Dünya Azərbaycanlılarının Həmrəyliyi günü

## YARIZARAFAT, YARIGERÇƏK

- Sağlamlığınızı qoruyun ki, ömrünüzü qorusun.
- Axıra çatdırmadığımız işin axırını Allah necə xeyir eləsin?!
- Qəribədir, sərf eləmədiyi üçün mənə atanlar məni atmırlar?
- Səhvlərindən nəticə çıxarmayan çətin ki, nədənsə baş çıxarsın.
- Əvvəl-axır hər şeyin zamanı gəlir. Biz görməsək də.
- Özünü ağıl dəryası sayan ya ağlın nə olduğunu bilmir, ya da dəryanın.
- Atın ən pis hərəkəti uzunqulağın ən yaxşı hərəkətindən yaxşı olar.
- Özünü gözəsoxan çox olduğu üçün gözlərimiz daha tez korlanır?
- Yersiz suala ən yaxşı cavab özünü eşitməməzliyə qoymaqdır.
- Nəyəsə nail olmaq istəyirsinizsə, nail olacağınıza ürəkdən inanın.
- Qaçmağın ən pisi verdiyin sözdən qaçmaqdır.
- Belə getsə, qarın bəziləri üçün bütün əzizlərindən irəlidə olar.
- Nədən və nə vaxt başladığını bilirsənsə, bilmədiyin digər şeyləri bağışlamaq olar.
- Hətta boyundan uca tullana bilən də boş yerə atılıb-düşməməlidir.
- Ağac əkməsən də, mütləq bəhrə verəcək bir iş gör.
- Problemlər həmişə olub və olacaq. Səndə də onları həll etməyə həmişə iradə olsun.
- Heç kim və heç nə uğurlarınızı sizin zəif cəhətləriniz qədər əngəlləyə bilməz. Zəif cəhətlərinizi bacardıqca tez aşkar edin və aradan qaldırın.
- Yaddaşınız nə qədər möhkəm olsa da, paxıllığı birdəfəlik unudun.
- Allah ən çox vicdanını eşidəni eşidir.
- Xəstə həkimin üzündən inamdan başqa nə oxusa, sağalmaz.
- Pulun olanda malını yeyənlər, pulun olmayanda başını yeyə bilərlər.
- Yalan işə keçməsə, gör nə qədər adamın işi dayanacaq.

***Rasif TAHİROV***

## Düşün, tap!

## SUAL BİZDƏN, CAVAB SİZDƏN

**Ulduzun (*) yerində hansı əməl işarələri olmalıdır?**

345*335 *21 * 29 * 2=0

**Hansı sırada gəmilərimizin adı yazılmayıb?**

1) SƏİİNM
2) NƏLƏARNK
3) LNBKAAƏ
4) UİQUPLR
5) ƏƏRDB

**Anaqramda gizlənmiş məsəli aşkar et:**

Ulobcr ulobcrnnı ınasğğılı rsəit

**Sual işarəsinin yerində hansı ədəd olmalıdır?**

Çay = 3
Dəniz = 23
Gəmi = 22
Gəmiqayırma = ?

**Sual işarəsinin yerində hansı hərf olmalıdır?**

C, E, G, X, J, L, O, ?

**Hansı söz artıqdır?**

Müxəmməs, müstəzad, mürəbbe, müsəddəs, müqəddəs

**“DƏNİZ”**

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

– Mənə elə gəlir ki, mən artıq maliyyə sabitliyinə nail olmuşam.
– Necə?
– Pulum yox idi, yoxdur və görünür olmayacaq.

***

– Sən Rabinoviçi basdırmağa gedəcəksən?
– Niyə getməliyəm ki? Düşünürsən, o mənimkinə gələcək?

***

– Ana, Leonid dünən dedi ki, mən Odessanın ən ziyalı qızıyam. Deyirəm bəlkə onu evə qonaq çağıraq?
– Qətiyyən olmaz! Qoy elə də fikirləşsin.

***

Məşhur aviaşirkət işə işçi qəbul edir. Bir yerə 3 namizəd – alman, ingilis və rus iddiaçı olur. Şirkətin direktoru almandan soruşur:
– Çoxdan uçursunuz?
– Üç ildir.
– Nə qədər əmək haqqı almaq istərdiniz?
– Üç min. Min özüm, min arvadım, min də sığorta üçün.
Direktor ingilisdən soruşur:
– Neçə ildir uçursunuz?
– Altı ildir.
– Nə qədər əmək haqqı almaq istərdiniz?
– Altı min. İki min özüm, iki min arvadım, iki min də sığorta üçün.
Direktor rusdan soruşur:
– Bəs siz çoxdan uçursunuz?
– Uçmaq deyəndə ki, əslində mən heç əməlli-başlı uça bilmirəm. Hündürlükdən qorxuram. Əmək haqqına gələndə isə, doqquz min istəyirəm.
– ?!
– Bəs necə: üç özüm üçün, üç sizin üçün...
Direktor:
– Saxla, bəs kim uçacaq?
– Necə yəni kim? Alman. O, onsuz da üç minə razıdır...

***

İki uşaq söhbət edir:
– Hər halda, valideynlərimiz çox qəribədirlər.
– Niyə elə fikirləşirsən?
– Əvvəlcə bizə yeriməyi və danışmağı öyrədirlər. Sonra isə istəyirlər ki, biz oturaq və susaq.

***

Arvad ərinə deyir:
– Bizə zərərli işə görə əlavə 15 faiz verəcəklər.
Ər:
– Artıq işdəkiləri də zəhərləmisən?

## Yaddaşsızlıqdan narahatsınızsa...

**Yuxu, yaddaş və tədris prosesi arasında dəqiq qarşılıqlı əlaqənin olduğu çoxdan məlumdur. İnformasiyanın qısamüddətli yaddaşdan uzunmüddətli yaddaşa ötürülməsinə məhz yuxu təsir edir.**



Alimlər yaddaşın möhkəmləndirilməsinin araşdırılmasına yönəldilmiş tədqiqat keçiriblər. Tədqiqatı drozofil milçəkləri üzərində aparıblar. İnformasiyanın qısamüddətli yaddaşdan uzunmüddətli yaddaşa köçürülməsinə cavabdeh olan neyronlar yuxu zamanı fəallaşıb, oyaq olan vaxt isə onlar öz fəaliyyətini dayandırıb.

Beləliklə, alimlər bu nəticəyə gəliblər ki, informasiya yuxu olmadan tam ölçüdə mənimsənilə bilməz və yadda saxlama qısamüddətli olur.

İnsanda xatırlama prosesi hippokamp – yaddaş mərkəzinin yerləşdiyi baş beyin nahiyəsilə tənzimlənir. Hippokamp həmçinin yuxu və oyaqqalma proseslərinə də nəzarət edir.

**Tahir DADAŞOV**


BAŞ REDAKTOR
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor (050) 670-33-76,
Redaktor (070) 252-39-02

Qəzetin təsisçisi “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “OL” MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 1